**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# HƏSRƏT YANĞISI ilə...

Elçin Muradxanlı tanınmış dilçi alimdir, bir neçə monoqrafiyanın və əllidən çox məqalənin müəllifidir. Amma zehni, elmi təfəkkürü ilə yanaşı bir şair qəlbi də var, artıq beş şeir kitabının müəllifidir. Təvazökarlıq yox, məsuliyyət hissidir ki, özünü şair adlandırmır. Amma şeirləri ilə tanış olduqdan sonra onun özünü şair adlandırmamasına baxmayaraq o ŞAİRDİR.

***Yaşamaq bir nərd oyunu...***
***Udmaq oynamaqla deyil.***
***Aparacaq dərd oyunu,***
***Kənara qaçmaqla deyil.***

***Zəri atan sən deyilsən,***
***Atdığını atır fələk.***
***Sən onunla tən deyilsən,***
***Səni tez aldadır fələk.***

Həyatla, fələklə, dünya ilə bu həsbi-hal, özünün yaşamaq haqqını nərd oyunu ilə müqayisə onu göstərir ki, Elçin Muradxanlı şairlik missiyasını yerinə yetirir, səsdən sözə, sözdən fikirlə hissin vəhdətindən yaranan şeirə keçir. Onun şeirlərini bütövlükdə səciyyələndirmiş olsaq, iki axın, iki istiqamət müşayiət edərik. Elçin əksər şeirlərində xatirələr işığında ğürünür, bu işıq heç də öləzəmiyib, o xatirələr bu günün yaşantılarına qarışır, onlara rəng qatır. O, bir şeirində "öldü cavanlığım, getdi gəncliyim" deyir, amma o şeirin ikinci misrasında "yaşandı qönçələr üzən günlərim" söyləyir, ömrün o illəri yaşanırsa, "düzdə dovşan , kolluqda turac vuran" günlər unudularmı? Elçinin "Kəndim" adlı şeiri var və o şeirdə heç də keçmişə təəssüf hissi ilə qarşılaşmırıq, kənd şairin içindən, ruhundan çəkilib getmədiyi üçün dönə-dönə xatırlanır:

***Toyda toy duyğulu, yasda kədərli,***
***Xeyrində, şərində bir olan kəndim.***
***Baş alıb dünyanın sonuna gedəm***
***Mənim ürəyimdə var olan kəndim.***

İkinci istiqamət şairin həyat, ölüm-dirim, yaşamaq yanğısıdır ki, onun duyduqları, onun düşüncələri "fəlsəfiləşir". Çalışır ki, yüzlərlə şairin həyat və ömür haqqında söylədiklərini təkrara varmasın, bu düşüncə eyniliyinə qoşulmasın, hətta etiraz səviyyəsində olsa belə, sözünü, fikrini gizlətməsin:

***Min ildi bu dünya elə həmindi,***
***Dövr edir, dövr edir, dövr edir belə.***
***Bəndə də həmindi, allah da həmin,***
***Gövr edir, cövr edir, cövr edir belə.***

***Sevinc də həmindi, kədər də həmin,***
***Sevgi də həmindi, qədər də həmin.***
***Sızlayan yarası yanan sinəmin,***
***Qövr edir, qövr edir, qövr edir belə.***

Bir oxucu-ədəbiyyat adamı kimi daha çox hər hansı şairin həyat və zaman, ölüm və olum, kədər və onun təzadı sevinc üzərində köklənən şeirlərinə diqqət yetirirəm. Çünki bu təzadlar üzərində qurulan şeirlərdə fikir yeniliyi ilə üzləşə bilirsən. Məsələn, Elçin Muradxanlının "Mən qarğı atımı uzağa sürdüm" şeirini götürək.

***Mən qarğı atımı uzağa sürdüm,***
***Yolda dayanmadı, duzlağa sürdüm.***
***Yolda dayanmadı, mənzildən ötdü,***
***Yolu başlamamış, gördüm ki, bitdi.***

***Küləklər çatmadı tozuna onun,***
***Kim yüyən vuracaq ağzına onun.***
***Yollarda daş dəydi ayaqlarına,***
***Tələ də qurdular qarğı atıma.***

***Mən oldum bir ömrü küsdürən alam,***
***Bir ömür boyunca at sürən adam.***
***Mən indi bu atı hara bağlayım,***
***Harda duraqlanım, harda ağlayım.***

***İlahi, yaxşı ki, sürdüm atımı!***
***At üstdə keçirdim mən həyatımı.***
***Dünya yanımızdan ötən şey imiş,***
***Ömürsə, eləcə, "at mənziliysmiş".***

Onun dünya ilə bağlı bir neçə şeiri də var.

Dünya və onun gərdişi, insanın dünyaya xitabı, dünyanı vəfasızlıq simvoluna çevirmək, bəzən isə yerdə bütün haqsızlıqları dünyanın üzərinə yıxmaq...şairlərimiz dünya ilə əsasən bu aspektlərdə "dərdlərini" bölüşürlər. Dünyaya müraciət klassik poeziyamızda da, aşıq şeirində də əsas mətləblərdən biri olub. Biz dünyanın faniliyi, vəfasızlığı barədə onlarla, yüzlərlə şeirlər oxumuşuq. Nəsiminin "Dünya duracaq yer deyil, ey can, səfər eylə" misrası ilə həmahəng olan nə qədər ibrətamiz beytlər, misralar taparıq. Ustad şairlər bu dünyanüın, yaşadıqları dövranın hədsiz zülümləri ilə qarşılaşıblar və təbii ki, yaşlarının müdrik çağlarında "Biz gəldi gedərik, sən yaşa dünya" qənaətinə gəliblər. Amma dünyaya müraciəft yenə də tükənmir. Elçin Muradxanlı da dünyaya beş şeir həsr edib.

"Dünyanın içində" şeirində məkan heç də mücərrəd dünya deyil, onun yaşadığı, müşahidə etdiyi insanlar aləmidir. Hər kəsin öz dünyası var və çox vaxt biz onlın dünyasını görə bilmirik. Çünki: "Yerdən durub aya baxan kimiyik, Orda ölübqalanları görmürük" Sonda:

***Dürlü-dürlü sirləri var dünyanın,***
***Hər bəndəyə başqa-başqa yer verib.***
***Hər kəs üçün yerləri var dünyanın***
***Birinə gen, başqasına dar verib.***

"Dünya düzəlməyəcək" şeiri çox güman ki, Məmməd Arazın "Dünya düzəlmir ki, düzəlmir baba" şeirindən təsirlənmədir. "Dünya məni çox sınayır"da dünyadan şikayət sədasıü gəlir:

***Dünya məni çox sınayır,***
***Hey yandırır, qarsılayır.***
***Boynuma kəndir dolayır,***
***Daha bezdim, durum gedim.***

Fikrimcə, Elçin Muradxanlının Dünya silsiləsində "Çətindir" şeiri digərlərindən seçilə bilir:

***Dünya şirin, ömür qısa, arzu çox,***
***Bu dünyadan murad almaq çətindir.***
***Vüsalı da, sevgisi də tez ötür,***
***Axıracan xoşbəxt olmaq çətindir.***

Ona görə də deyək ki, Elçin Muradxanlının bir mövzu ilə şeirlərində müxtəliflik var. Dünyadan şikayətlənməyə isə dəyməz.

Elçin Muradxanlının iki şeiri - "Ağac" və "Ölüm" - öz bitkinliyi ilə diqqəti cəlb edir. "Ağac"da hamımızın seyr etdiyi bir mənzərə təsvir olunur. Elçin Muradxanlı bir ağacın faciəsindən söz açır -

***Pəncərənin önündə bitən küknar ağacı,***
***Sən nə alma ağacısan, nə də ki nar ağacı.***
***Amma mənə fərqi yox, sevirəm hər ağacı***
***Budağını qoy mənim ovucumun içinə..***

***Sən nə payızda öldün, nə də yazda dirildin,***
***Qışda qardan əyildin, yayda günəşdə yandın.***
***Hər ağrıya, acıya əziyyətlə dayandın,***
***Sənin nə çəkdiklərin dünyanın nə vecinə?***

O küknar ağacını düz olduğu üçün kəsirlər - "daşıdılar, yığdılar həyətin bir küncünıə". Əslində, burda bir metafora var - təkcə ağaclar yox, insanlar arasında da beləlləri az deyil.

"Ölüm" şeiri həm ölüm, həm də ölümsüzlük haqqındadır.

***Hamı köçür. Çəkir, gedir,***
***Əli gedir, Vəli gedir, Bəkir gedir.***
***Padşah gedir, vəzir gedir, vəkil gedir.***
***Hər adamın ürəklərdə yeri qalır.***
***Kimlərsə də cavan gedir,***
***Dalda nakam yarı qalır***
***Eləsi də yarı ölür, yarı qalır,***
***Bircə Allah ölmür, atam!***

Elçin Muradxanlının "Kişilik" şeiri də bəyənimlidir. Və fikrimcə, Elçinin bu kitabda ən yaxşı şeirlərindən biri elə "Kişilik"dir:

***Dağın dağ vüqarı, kişinin kişi,***
***Kişilər yaşayar, dağ olar, qalar.***
***Hər zaman nəğmədi, sözdü kişilik,***
***Ucaldı göylərdə, süzdü kişilik.***
***Hər zülmə, sitəmə dözdü kişilik.***

Elçinin "Həsrət yanğısı" kitabında kəmiyyəti etibarilə birinci sırada sevgi şeirləri durur. Bu şeirlərin içində lirik hisslərin, təbii yaşantıların ifadəsi kimi diqqəti cəlb edən nümunələr az deyil. Bədbinliklə yazılan, pessimist ruhlu şeirlər də var, sənsizlikdən doğan ah-aman da, ayrılıq-vüsal arasındakı məsafədə dayanan "o cana qovuşsun bu can" diləyi də, bəlkə etibarsızlıqdan doğan "gəlmə, daha istəmirəm" tələbi də, "inciyə-inciyə küsüşəm səndən" etirafı da. Bir sözlə, sevgidən doğan hər nə... Amma ən gözəl sevgi şeiri "Dibçək gülləri"dir.

***Güllərə nə yaxşı qulluq edirsən,***
***Nazını çəkirsən hər çiçəyinin.***
***Yuyub yarpaqları parıldadırsan,***
***Başına dönürsən sən dibçəyinin.***

***Pərdəni çəkirsən gün düşsün deyə,***
***Soyuqdan, küləkdən qoruyursan sən.***
***Bir budaq soluxub qurusa əgər,***
***Az qala onunla quruyasan sən.***

***Axı bu otaqda başqası da var,***
***Adam da çalışır bu iş yerində.***
***Mənim də dərdimi hərdənbir suvar.***
***Yoxsa deyilikmi gül dəyərində?***

**Elçin Muradxanlı bir şeirində yazır ki: "Allahdan qorxan adamam". Hamımız kimi. Amma o, allahdan qorxsa da, şeirdən qorxmasın. Daha gözəl, poeziyada yaşaya biləcək şeirlərin sayını-sanbalını çoxaltsın...**